Filologiya üzrə fəlsəfə doktoru, dosent Şəlalə Ana Hümmətlinin müəllifliyi ilə - transfoneliterasiya, tərtib, ön söz və qeydlərin müəllifliyi ilə "Şuşa torpağında doğulan dilçi alim Yusif Vəzir Çəmənzəminli" adlı kitab ("Zərdabi Nəşr" MMC, 2022) işıq üzü görüb. AMEA Nəsimi adına Dilçilik İnstitutunun qərarı ilə nəşr olunan kitabın elmi redaktoru professor Nadir Məmmədli, rəyiləri professor Leyla Vəzirova və Hacı Mustafa Mail oğludur.

Y.V.Çəmənzəminlinin anadan olmasının 135 illiyi və "2022-ci il - Şuşa ili" çərçivəsində çap olunan bu kitabda ədibin əsas etibarilə dilçilik sahəsindəki fəaliyyətini əks etdirən əsərləri toplanmış, doğma şəhəri olan Şuşa ilə bağlı dəyərli fikirləri əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, kitabın tərtibçisi Şəlalə Ana "Şuşada doğulan böyük türk oğlu Yusif Vəzir




# Çəmənzəminlişünaslığa dəyərli töhfə

Çəmənzəminli və ana dilimiz" adlı genişhəcmli və analitik təhlilə söykənən ön söz yazmışdır. Burada Yusif Vəzirin yaradıcılığı və həyat yolu müvazi olaraq gözdən keçirilmişdir. Necə deyərlər, ədibin yaşadığı dövr və mühitlə yaradıcılıq dünyası arasında maraqlı bağlantı quran Şəlalə xanım dəyərli bir ön sözə imza atmışdır. Başqa sözlər oxucular, mütəxəssislər bu ön söz yazısında Yusif Vəzir Çəmənzəminlini şəxsiyyəti və yaradıcılığı ilə birlikdə oxuyub tanıya bilirlər. Bu cür ətraflı təqdimatdan sonra yazıçının, alimin əsərlərinin bir qisminin kitabda verilməsi isə görkəmli alimin, ədəbi simanın haqqında deyilmiş bu dəyərli fikirlərin birbaşa öz əsərləri vasitəsilə də təsdiqini görməyə imkan verir.

Çəmənzəminlişünas alim Şəlalə Ana Hümmətliyə bu uğurlu araşdırma və təqdimatına görə çox sağ olsun deyir, yeni-yeni uğurlar arzulayıram.



***Şakir ALBALIYEV***